**"SINAM" Məhdud Məsuliyyətli**
**Cəmiyyətin direktoru cənab**
**Əbülfət Rəhmanova**

AMEA Nəsimi adina Dilçilik İnstitutu "FARABI" (BTMMN) layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatına dair

RƏY MƏKTUBU

Avtomatlaşdırılmış informasiya - FARABI sistemi Dilçilik İnstitutunda tətbiq edilərək sistemin üstünlüklərindən yararlanmağa başlamışdır. İnstitutumuzda fəaliyyət göstərən bu sistemin köməkliyi ilə bütün maliyyə - mühasibat işləri elektron formaya keçmişdir və mühasibat uçotunun aparılması daha da operativləşmiş, vaxt itkisinin qarşısı kifayət qədər alınmışdır.

FARABI sistemi Kadr və Mühasibat uçotu işinin təşkili və idarə edilməsini operativləşdirmiş, uçotun tam dəqiqliklə aparılmasını təmin etmişdir. Həmçinin işçilərlə bağlanmış bütün əmək müqavilələri, ştat cədvəlləri, şəxsi kartlar və əmək haqqının hesablanması avtomatlaşdırılmışdır. İşçilərin davamiyyəti ilə bağlı bütün qeydlər, tabel sistemdən alınır və bu da əmək haqqının hesablanıb ödənilməsini təmin edir. Bundan başqa göstərilən sistem bizə əsas vəsaitlərin uçotunun aparılması və onların köhnəlməsi məbləğinin hesablanması işində də yaxından köməklik edir.

Sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar Planına uyğun qurulmuşdur. Hesablar planında və qanunvericilikdəki dəyişiliklərin sistemdə mütəmadi olaraq əks etdirilməsi sistemin üstün cəhətlərindən biri kimi qiymətləndirilir.

Bu işin təşkilinə görə SİNAM şirkətinin kollektivinə minnətdarlığımızı bildiririk.

**Baş mühasib :** Mehdiyev Sabir Bəşir